**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANIN BORÇALI VƏ QAZAX-ŞƏMŞƏDDİL BÖLGƏLƏRİ UĞRUNDA GƏNCƏ XANLIĞI İLƏ RUSİYA-GÜRCÜSTAN BLOKU ARASINDA MÜBARİZƏ

| | |
|---|---|
| İxtisas: | 5503.02 – Vətən tarixi |
| Elm sahəsi: | Tarix |
| İddiaçı: | **Mürvət Cavid oğlu Əliyev** |

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**NAXÇIVAN – 2024**

Dissertasiya işi AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın yeni tarixi və Azərbaycan xalqına qarşı soyqırımları tarixi" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: Tarix elmləri doktoru, professor
**Camal Mehdi oğlu Mustafayev**

Rəsmi opponentlər: Tarix elmləri doktoru, professor
**Adil Baxşəli oğlu Baxşəliyev**

Tarix elmləri doktoru, dosent
**İbrahim Feyzulla oğlu Kazımbəyli**

Tarix üzrə fəlsəfə doktoru
**Qadir İsmayıl oğlu Əkbərov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Naxçıvan Bölməsinin nəzdində fəaliyyət göstərən ED 1.13 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü,
tarix elmləri doktoru, professor
**İsmayıl Muxtar oğlu Hacıyev**

Dissertasiya şurasının elmi katibi: Tarix elmləri doktoru, dosent
**Emin Arif oğlu Şıxəliyev**

Elmi seminarın sədri: Tarix elmləri doktoru, dosent
**Fəxrəddin Adil oğlu Cəfərov**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XVIII-XIX əsrin əvvəlləri Şimali Azərbaycanın qərb bölgələri olan Borçalı, Qazax və Şəmşəddilin ictimai-siyasi və sosial-iqtisadi həyatında son dərəcə təzadlı və köklü dəyişikliklərlə dolu bir dövr olmuşdur. Bəhs olunan dövrdə Şimali Azərbaycanın işğal olunmuş ərazilər probleminin öyrənilməsi məsələsi böyük elmi-siyasi aktuallıq kəsb edir. Hal-hazırda Borçalı bölgəsinin Gürcüstan Respublikasının tərkibində olması faktı İrəvan, Göyçə, Dərbənd, Qarabağ (Zəngəzur da daxil olmaqla) əraziləri kimi, bu bölgənin də tarixi keçmişinin öyrənilməsini vacib bir məsələ kimi ortaya qoyur. Rusiya-Qacar müharibələri dövründə Borçalı, Qazax və Şəmşəddil bölgələrinin tarixinin öyrənilməsi həmin bölgələrin Gürcüstan quberniyasının tərkibində Rusiyaya ilhaq edilməsindən sonra bunun hansı nəticələrə gətirib çıxartdığı amilinin araşdırılması da mühüm elmi, siyasi və mənəvi əhəmiyyət kəsb edir.

Təqdim olunan dissertasiyada Gəncə xanlığının Rusiya və Kartli-Kaxetiya birliyinə qarşı apardığı mübarizəsinin və Şimali Azərbaycanın Borçalı, Qazax, Şəmşəddil bölgələrinin çar Rusiyası tərəfindən işğalının tədqiqi nəzərdə tutulmuşdur. Bu zaman sözügedən problemin üç əsas süjet xətti qeyd olunmalıdır: 1) Borçalı, Qazax və Şəmşəddil bölgələrini öz tabeliyində saxlaması üçün Gürcüstanın çar Rusiyasının himayə və dayağından istifadə etməsi; 2) Bu torpaqların yağılar tərəfindən işğalına imkan verməmək üçün Gəncə xanlığının apardığı çox ağır mübarizə; 3) Borçalı, Qazax və Şəmşəddil bölgələrinin Rusiya tərəfindən işğal edilməsi ilə həmin bölgələrin əhalisinə qarşı tətbiq edilən zorakılıq siyasətinin ağır nəticələrə gətirib çıxarması.

Bu problemlərin mötəbər qaynaqlar əsasında obyektivcəsinə araşdırılması böyük əhəmiyyətə malik aktual elmi vəzifə kimi qarşıda durmaqdadır.

Azərbaycan və Rusiya tarixşünaslığında Gəncə xanlığı ilə Rusiya və Gürcüstan birliyinin mübarizəsi tarixinə xüsusi elmi əsər həsr olunmasa da, Borçalı, Qazax və Şəmşəddil bölgələrinin ictimai-siyasi və

sosial-iqtisadi həyatı ilə bağlı bir sıra əsərlər ərsəyə gətirilmişdir ki, onların da vasitəsilə biz tədqiq olunan mövzu ilə bağlı bir çox məlumatları əldə etmişik. Tədqiq edilən problemlə bağlı bu əsərləri dövr etibarilə iki yerə ayırmaq olar. Bu əsərlərin bir qismi sovet dövrü tarixşünaslığına,[1] digər qismi isə müasir dövr tarixşünaslığına aiddir.[2]

---

[1]Axundov, N.F. Qarabağ salnamələri / N.F.Axundov. – Bakı: Yazıçı, – 1989. – 232 s.; Həmidova, Ş.P. XVIII əsrin ikinci yarısında Azərbaycan-Gürcüstan münasibətləri tarixindən / Ş.P.Həmidova. – Bakı: Elm, – 1985. – 100 s.; Абдуллаев, Г.Б. Из истории Северо-Восточного Азербайджана в 60-80 гг. XVIII в. / Г.Б.Абдуллаев. – Баку: АН Азерб. ССР, – 1958. – 210 с.; Абдурахманов, А.А. Азербайджан во взаимоотношениях России, Турции и Ирана / А.А.Абдурахманов. – Баку: АН Азерб. ССР, – 1964. – 136 с.; Ибрагимбейли, Х.М. Россия и Азербайджан в первой трети XIX в. / Х.М.Ибрагимбейли. – Москва: Наука, – 1969. – 287 с.; Левиатов, В.Н. Очерки из истории Азербайджана в XVIII веке / В.Н.Левиатов. – Баку: Издательство АН Азербайджанской ССР, – 1948. – 228 с.; Маркова, О.П. Восстание в Кахетии 1812 г. / О.П.Маркова. – Москва: Издательство Академии Наук СССР, – 1951. – 336 с.; Маркова, О.П. Россия, Закавказье и международные отношения в XVIII веке / О.П.Маркова. – Москва: Наука, – 1966. – 324 с.; Меликишвили, Г.А. К истории древней Грузии / Г.А.Меликишвили. – Тбилиси: Издательство Академии Наук Грузинской ССР, – 1959. – 507 с.; Мильман, А.Ш. Политический строй Азербайджана в XIX – начале XX веков / А.Ш.Мильман. – Баку: Азербайджанское Государственное Издательство, – 1966. – 320 с.; Минасазов, Г.Б. Сто лет одной революции (Азербайджанское восстание 1826 года) / Г.Б.Минасазов. – Баку: АзГНИИ, – 1930. – 26 с.; Мустафаев, Дж.М. Северные ханства Азербайджана и Россия (конец XVIII – начало XIX в. / Дж.М.Мустафаев. – Баку: Элм, – 1989. – 128 с.; Петрушевский, И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI – начале XIX вв. / И.П.Петрушевский. – Ленинград: Издательство Ленинградского Государственного Ордена Ленина Университета имени А.А.Жданова, – 1949. – 384 с.; Рюмин, В.А. Краткие исторический и этнографический очерки Азербайджана / В.А.Рюмин. – Баку: – 1924; Сумбатзаде, А.С. Сельское хозяйство Азербайджана в XIX веке / А.С.Сумбатзаде. – Баку: Издательство Академии Наук Азербайджанской ССР, – 1958. – 364 с.

[2]Abdullayev, M.Q. Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər (XIX əsrin 40-cı illərinə qədər) / M.Q.Abdullayev. – Bakı: Adiloğlu, – 2005. – 232 s.; Azərbaycan-Gürcüstan münasibətləri tarixi (XVIII əsr – XXI əsrin əvvəlləri). – Bakı: “Şərq-Qərb” Nəşriyyat Evi, – 2013. – 392 s.; Бабаев, Э.Т. Из истории Гянджинского ханства / Э.Т.Бабаев. – Баку: Nurlan, – 2003. – 234 с.; Babazadə, E.T. Gəncə xanlığının tarixindən (rus dilindən tərcümə, 2-ci nəşr)

Dissertasiya işində bir sıra mütəxəssislərin müxtəlif elmi jurnallarda nəşr olunmuş silsilə məqalələrindən[3] də istifadə olunmuşdur ki,

---

/ E.T.Babazadə. – Bakı: "Şərq-Qərb" Nəşriyyat Evi, – 2012. – 428 s.; İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. – Bakı: Azərbaycan, – 2009. – 576 s.; İsayev, Ə. Azərbaycanda inzibati idarəçilik (XIX-XX əsrin əvvəlləri) / Ə.İsayev. – Bakı: Mütərcim, – 2015. – 128 s.; Məmmədli, M. Borçalı mahalı və Qaçağan kəndi / M.Məmmədli. – Bakı: Təfəkkür, – 2001. – 292 s.; Məmmədov, N.R. Azərbaycan Respublikasının Şuşa şəhərinin tarixi / N.R.Məmmədov. – Bakı: "Avropa" nəşriyyatı, – 2016. – 960 s.; Mustafazadə, T.T. T.T. XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri / T.T.Mustafazadə. – Bakı: Elm, – 2002. – 372 s.; Mustafazadə, T.T. Quba xanlığı / T.T.Mustafazadə. – Bakı: Elm, – 2005. – 480 s. + 1 xəritə; Mustafazadə, T.T. Qarabağ xanlığı / T.T.Mustafazadə. – Bakı: Sabah, – 2009. – 333 s.; Nəcəfli, G.C. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri / G.C.Nəcəfli. – Bakı: Nurlan, – 2007. – 248 s.; Ömərli, V. Qarayazı. Gürcüstanda türklər / V.Ömərli. – Bakı: Çaşıoğlu, – I hissə – 2001. – 760 s.; Piriyev, V.Z. Azərbaycanın tarixi-siyasi coğrafiyası / V.Z.Piriyev. – Bakı: "Müəllim" nəşriyyatı, – 2006. – 148 s.; V.U. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəm-ləkəçilik əleyhinə mübarizə / V.U.Umudlu. – Bakı: Elm, – 2004. – 184 s.; Абасов, Ф.М. Гарабагское ханство / Ф.М.Абасов. – Баку: Тахсил, – 2007. – 280 s.; Аббасова, М.А. История Борчалинского махала (XIX – начало XX вв.) / М.А.Аббасова. – Баку: Сабах, – 2006. – 460 s.; Алиева, И.Х. Политическое и социально-экономическое положение азербайджанцев Тифлисской губернии (1846-1017) / И.Х.Алиева. – Баку: Тахсил, – 2009. – 224 с.; Гарабаг: Кюрекчайский договор – 200. – Баку: Тахсил, – 2005. – 176 с.; Мамедова, Г.Н. О походе В.Зубова в Азербайджан в 1796 г. / Г.Н.Мамедова. – Баку: Елм, – 2003. – 48 с.

[3]Abdullayev, M.Q. Qazax, Şəmşəddil və Borçalı sultanlıqları rus işğalınadək olan dövrdə (XVIII əsrin ortaları – XIX əsrin 40-cı illəri // – Tbilisi: Qarapapaqlar, 2014, may, №5, s. 23-29; Nəsibli, L.İ. Borçalıda azərbaycanlı əhalisinin demoqrafik vəziyyəti // – Bakı: Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, – 2011. №1, s. 158-163; Байрамова, Н.Ш. Наша независимость и наша история: о Борчалинском султанстве // – Баку: Труды Института Истории НАН Азербайджана, – 2010. Том 34-35, – с. 21-26; Сафаров, Р.Ф. Гянджа в период русского завоевания Кавказа // Qafqaz tarixinin aktual məsələləri. Beynəlxalq konfrans. 15-16 oktyabr 2015. – Gəncə: II hissə, – 2015, – s. 243-247; Mustafayev, C.M. Gəncə xanlığının rus-gürcü bloku ilə mübarizəsi tarixindən // – Bakı: "XIX əsrin əvvəllərində Qafqaz müharibələri və onların nəticələri" mövzusunda beynəlxalq elmi konfransın xüsusi buraxılışı. Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun "Elmi Əsərləri", – 2013. 44, 45, 46, 47-ci cild, – s. 62-69;

həmin məqalələrdə də tədqiq olunan problemə dair müxtəlif məsələlər işıqlandırılmışdır. Bu məqalələrdə Borçalı, Qazax və Şəmşəddil bölgələrində tətbiq edilən müxtəlif növ vergi mükəlləfiyyətlərindən, Gürcüstanın Rusiyanın təsiri altına düşməsindən, Gəncə xanlığının Şəmşəddil ərazisi uğrunda Rusiya və Kartli-Kaxetiya birliyinə qarşı apardığı mübarizəsindən, Rusiya-Qacar müharibələrində Qazax və Şəmşəddil atlılarının, eləcə də Borçalı qarapapaqlarının məxsus olduğu hərbi keyfiyyətlərindən və digər məsələlərdən danışılır.

Əsərin başlıca mənbə bazasını Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları (bundan sonra QAKA)[4] təşkil edir. Məşhur şərqşünas

---

Məcnunov, R. Tiflis şəhərinin tarixi keçmişinə dair // – Bakı: Tarix və onun problemləri, – 2016. №3, – s. 75-83; Kərimli, İ.K. XIX əsrin əvvəllərində Cavad xanın Şəmşəddil sultanlığı uğrunda mübarizəsi tarixindən // "Qafqaz tarixinin aktual məsələləri" mövzusunda beynəlxalq konfransın materialları. Gəncə Dövlət Universiteti, – 15-16 oktyabr. – Gəncə: – 2015. II hissə, – s. 15-20; Кобиашвили, Э. Первое антироссийское выступление в Грузии. Заговор Кельменчури // "Qafqaz tarixinin aktual məsələləri" mövzusunda beynəlxalq konfransın materialları. II hissə. Gəncə Dövlət Universiteti, 15-16 oktyabr. Gəncə: – 2015, – s. 376-380; Məmmədov, K. Borçalı Çar Rusiyasının işğalı dövründə // – Tbilisi: Qarapapaqlar, – 2009, fevral, №02, – s. 9-11; Амирбекова, Н. Структура воюющих сторон в период первой Русско-Иранской (Каджарской) войны // – Баку: Труды Института Истории НАН Азербайджана, – 2013. Том 44, 45, 46, 47, – с. 408-415; Hacıyev, F.V. Borçalılar İkinci Rus-Qacar müharibəsində // – Bakı: Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, – 2013, №4, – s. 143-149; Hacıyev, F.V. Qacarlar ordusunun Borçalı əsilli sərkərdələri: Nağı xan və İsmayıl xan // – Bakı: "XIX əsrin əvvəllərində Qafqaz müharibələri və onların nəticələri" mövzusunda beynəlxalq elmi konfransın xüsusi buraxılışı. Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Əsərləri, – 2013. – 44, 45, 46, 47-ci cild, – s. 416-423; Гаджиев, Ф.В. Карапапахи в русско-иранской войне 1826-1828 гг. // – Тбилиси: «Кавказ и Мир», Международный научный журнал, – 2013, №16, – с. 71-75.

[4]Акты, собранные Кавказской археографической комиссией: [в 12 томах]. – Тифлис: Типография Главного управления Наместника Кавказского, – Т. 1. – 1866. – 816 с.; Акты, собранные Кавказской археографической комиссией: [в 12 томах]. – Тифлис: Типография Главного управления Наместника Кавказского, – Т.2. – 1868. – 1238 с.; Акты, собранные Кавказской археографической комиссией: [в 12 томах]. – Тифлис: Типография Главного управления Наместника Кавказского, – Т.3. – 1869. – 766 с.; Акты, собранные

A.P.Berjenin redaktəsi ilə nəşr etdirilən bu Aktlarda Rusiya işğalı dövründə Borçalı, Qazax və Şəmşəddil bölgələrinin sosial-iqtisadi və ictimai-siyasi həyatına dair bir sıra zəngin məlumatlar tapmaq mümkündür. Bəhs olunan dövrdə Rus hərb xadimlərinin təqdim etdikləri raportlar, rəsmi məktublar və digər sənədlərin bölgələrimizdə mövcud olan ictimai münasibətlərin, Rusiya-Qacar müharibələri dövründə azərbaycanlıların malik olduqları hərbçilik keyfiyyətlərinin, tədqiq etdiyimiz bölgələrdə baş vermiş üsyanların, miqrasiya proseslərinin və digər hadisələrin öyrənilməsi baxımından böyük elmi əhəmiyyəti var. Bu qaynaqlarda Rusiyanın müstəmləkəçilik siyasətini açıqdan açığa işıqlandıran heç bir sənədin olmamasına baxmayaraq, respublikamız müstəqillik qazandıqdan sonra onların obyektiv elmi təhlillər əsasında öyrənilməsi ilə sovet dövründə təhrif olunmuş tariximizin yeni səpkidə yazılması istiqamətində böyük rolu olmuşdur.

Mövcud dissertasiyanın yazılmasında Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin (ARDTA) Gürcüstan Ali Hökumətinin 1806-1839-cu illəri əhatə edən dövlət ekspedisiyasının materiallarından bəhs olunan 24, Yelizavetpol komendant idarəsinin 1805-1837-ci illəri əhatə edən 63 və Şuşa qəza polis idarəçiliyinin 77 saylı fondlarının[5] materiallarından da istifadə olunmuşdur ki, onlarda da 1758-ci ildə

---

Кавказской археографической комиссией: [в 12 томах]. –Тифлис: Типография Главного управления Наместника Кавказского, – Т. 4. – 1870. – 1019 с.; Акты, собранные Кавказской археографической комиссией: [в 12 томах]. – Тифлис: Типография Главного управления Наместника Кавказского, – Т. 5. – 1873. – 1186 с.; Акты, собранные Кавказской археографической комиссией: [в 12 томах]. – Тифлис: Типография Главного управления Наместника Кавказского, – Т. 6, Ч. 1. – 1874. – 957 с.; Акты, собранные Кавказской археографической комиссией: [в 12 томах]. – Тифлис: Типография Главного управления Наместника Кавказского, – Т. 6, Ч. 2. – 1875. – 954 с.; Акты, собранные Кавказской археографической комиссией: [в 12 томах]. – Тифлис: Типография Главного управления Наместника Кавказского, – Т. 7. – 1878. – 1010 с.

[5]Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (ARDTA), f. 24, s. 1, iş 65; ARDTA, f. 24, s. 1, iş 68; ARDTA, f. 24, s. 1, iş 78; ARDTA, f. 24, s. 1, iş 100; ARDTA, f. 24, s. 1, iş 125; ARDTA, f. 24, s. 1, iş 137; ARDTA, f. 24, s. 1, iş 159; ARDTA, f. 24, s. 1, iş 216; ARDTA, f. 63, s. 1, iş 14; ARDTA, f. 77, s. 1, iş 562.

qarabağlı Pənahəli xan tərəfindən Borçalı, Qazax və Şəmşəddil əhalisinin bir hissəsinin Qarabağa köçürülməsi, Qazax distansiyasından qaçan kəndlilərin geri qaytarılması, XIX əsrin I rübündə Qazax distansiyası əhalisi üzərinə tətbiq olunan cəriməlik taxıl vergisi, 1818-1820-ci illərdə müsəlman distansiyalarında ruslara qarşı baş verən xalq həyəcanları və s. haqqında məlumatlar öz əksini tapıb. Həmin məlumatlar çarizmin Şimali Azərbaycandakı müstəmləkəçilik siyasətinin mahiyyətini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyətə malikdir.

İstifadə olunmuş mənbələrin digər bir qrupunu çağdaş dövrümüzdə üç kitab halında çap olunmuş "Qarabağnamələr" təşkil edir. Əsasən salnamə səciyyəsi daşıyan bu "Qarabağnamələr"də başlıca olaraq XIX əsr xronikaçı tarixçilərin əsərləri[6] yer almışdır. Bu müəlliflərin əsərləri başlıca olaraq Qarabağ bölgəsinin XVIII – XIX əsrin birinci yarısı tarixinə həsr olunsa da, onlarda tədqiq etdiyimiz problemlə bağlı xeyli məlumatlara rast gəlmək mümkündür. "Qarabağnamələr" müəlliflərinin verdiyi məlumatlar əsasında Gəncə xanlığının digər xanlıqlarla qarşılıqlı münasibətləri, Şəmşəddilin qaytarılması uğrunda Cavad xanın ruslara və gürcülərə qarşı apardığı mübarizə, XIX əsrin əvvəllərində bölgələrimizin Rusiya işğalına məruz qalması və digər bu kimi məsələlərlə bağlı problemləri araşdırmaq mümkündür.

**Tədqiqatın obyekti və predmeti.** Mövcud tədqiqat işinin başlıca tədqiqat obyektini XVIII əsrin II yarısı – XIX əsrin ilk otuzilliyində Şimali Azərbaycanın Borçalı, Qazax və Şəmşəddil bölgələrində baş vermiş mühüm hərbi-siyasi proseslər təşkil edir. Araşdırmanın əsas predmeti qismində isə bu bölgələr uğrunda Gəncə xanlığının Rusiya-Gürcüstan blokuna qarşı apardığı mübarizənin tarixi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Gəncə xanlığının Qazax-Şəmşəddil və Borçalı uğrunda Rusiya və Kartli-Kaxetiya birliyinə qarşı mübarizənin həqiqi tarixi mənzərəsini yaratması bu tədqiqatın

---

[6]Mirzə Adıgözəl bəy. Qarabağnamə // Qarabağnamələr. – Birinci kitab. – Bakı, Yazıçı, – 1989, – s. 5-102; Əlizadə, Həsən İxfa. Şuşa şəhərinin tarixi // Qarabağnamələr. İkinci kitab. – Bakı: Yazıçı, – 1991, – s. 309-348; Mirzə Yusif Qarabaği. Tarixi-Safi // Qarabağnamələr. – İkinci kitab. – Bakı: Yazıçı, – 1991, – s. 5-92.

başlıca elmi məqsədi kimi qarşıya qoyulmuşdur. Təqdim olunan əsər bu sahədə mövcud boşluğu qismən də olsa doldurmaq məqsədini güdür. Qarşıya qoyulan bu əsas elmi məqsəd aşağıdakı vəzifələrin həllini şərtləndirir:

– Borçalı və Qazax bölgələrinin Gürcüstana "tabe etdirilməsi" məsələsində Nadir şah Əfşarın yeritdiyi siyasəti tutarlı elmi əsaslarla izah etmək və bu hadisənin əsl mahiyyətini açmaq;

– Gəncə xanlığının Kartli-Kaxetiya çarlığı ilə münasibətlərində Şəmşəddil ərazisi məsələsinin bölgələrimizin tarixi keçmişi ilə bağlı əlaqəli olmasını açıb göstərmək;

– Rusiya və Kartli-Kaxetiya birliyinin Borçalı, Qazax və Şəmşəddil ərazilərinə iddiası məsələsi ilə Gəncə xanlığının digər xanlıqlarla münasibətləri probleminin yanaşı öyrənilməsi və onların bir-birinə qarşılıqlı təsiri faktlarını elmi əsaslarla izah etmək;

– Rusiya-Qacar müharibələri dövründə Borçalı, Qazax və Şəmşəddil bölgələrində baş vermiş əhali miqrasiyasının səbəblərini açıb göstərmək və bu problemlə bağlı Rusiya məmurları və zadəgan təbəqəsi nümayəndələrinin tutduqları mövqelərinin elmi obyektivlik baxımından düzgün izahını vermək;

– Rusiya və Kartli-Kaxetiya birliyinin Borçalı, Qazax və Şəmşəddil ərazilərinə qarşı yeritdiyi müstəmləkəçilik siyasətinin ölkəmizin taleyi üçün törətdiyi fəsadları dəyərləndirmək.

**Tədqiqatın metodları.** Mövcud tədqiqatın qarşısında duran başlıca elmi məqsədə çatmaq, müəyyənləşdirilmiş elmi vəzifələri həll etmək üçün müəllif bir sıra müxtəlif elmi metodlardan istifadə etmişdir. Araşdırmaların gedişində ümumi məntiqi tədqiqat metodlarından – müqayisəli tutuzdurmalar, ətraflı analiz, dialektik müqayisə, səmərəli sintez, genişmiqyaslı ümumiləşdirmələr, bunlarla bərabər tarixi təsvir metodlarından yararlanmaqla bərabər, tarixi-müqayisə və sistemli yanaşma üsullarından da geniş şəkildə istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işində müdafiəyə aşağıdakı əsas elmi müddəalar çıxarılmışdır:

- Azərbaycanın şimali-qərb hüdudlarında yerləşən Borçalı, Qazax və Şəmşəddil bölgələri əyyami-qədimdən bəri Vətənimizin tarixində

önəmli mövqeyə malik olmuş bölgələrdəndir;

- bu torpaqlar uğrunda Gəncə xanlığının mübarizəsi XVIII əsrin II yarısında xüsusilə gərgin bir mərhələyə daxil olmuşdur;

- XVIII əsrin sonuna yaxın, xüsusən də 1783-cü ildə Rusiya və Kartli-Kaxetiya arasında Georgiyevsk müqaviləsinin imzalanmasından sonra Azərbaycanın bu bölgələrinə xarici basqılar xüsusi vüsət aldı;

- Gəncə xanlığının bu bölgələr uğrunda Rusiya-Gürcü blokuna qarşı mübarizəsi qeyri-bərabər qüvvələr nisbəti şəraitində gedirdi;

- xarici istilaçıların təcavüzkar planlarının reallaşmasına rəvac verən səbəblər içərisində qüvvələrin qeyri-bərabərliyi ilə yanaşı Şimali Azərbaycanda o zaman mövcud olan siyasi pərakəndəlik, ayrı-ayrı hökmdarların hakimiyyəti istənilən yolla qoruyub saxlamağa yönəlmiş uzaqgörməyən siyasəti də az rol oynamamışdı;

- Cavad xan Gəncəlinin Borçalı, Qazax və Şəmşəddil bölgələri uğrunda mübarizəsi nəticə etibarı ilə uğursuzluğa məruz qalsa da, bütövlükdə Şimali Azərbaycanda Rusiya işğallarının başlanmasını müəyyən müddətə ləngitdi və Azərbaycan torpaqlarının azadlığı və suverenliyi uğrunda mübarizənin tarixinə parlaq bir qəhrəmanlıq səhifəsi kimi düşdü.

**Tədqiqatın elmi yeniliyi.** Təqdim olunan dissertasiya üçün seçilmiş mövzu üzrə Azərbaycan tarixşünaslığında ilk sistemli və bitkin addımlardan biri hesab edilə bilər. Tədqiqatda faktiki olaraq ilk dəfə:

– Gəncəli Cavad xanın Borçalı və Qazax-Şəmşəddil bölgələri uğrunda Rusiya və Kartli-Kaxetiya birliyinə qarşı mübarizəsində digər Azərbaycan xanlıqlarının bu mücadiləyə qarşı münasibətləri məsələsi açıqlanmışdır;

– Gəncə xanlığının Kartli-Kaxetiya çarlığı ilə münasibətlərində Şəmşəddil ərazisi probleminin tarixi keçmişi ilə bağlı dəlillər ortaya qoyulmuş və bu məsələnin gəncəli Cavad xanın xarici siyasətinin əsas istiqamətini təşkil etməsi faktının izahı verilmişdir;

– Şimali Azərbaycan bölgələrinin Rusiya tərəfindən işğalı məsələsində Rusiya-Gürcüstan münasibətləri probleminə toxunulmuş və bu münasibətlərin elmi əsaslarla təhlili əsasında yeni faktlar ortaya qoyul-

muşdur;

– Gəncəli Cavad xanın Borçalı və Qazax-Şəmşəddil bölgələri uğrunda Rusiya və Kartli-Kaxetiya birliyinə qarşı mübarizəsindən Gəncə xanlığının işğalına qədər olan dövrdə azadlıq mücadiləsinin gedişatı və xarakteri ətraflı şəkildə verilmişdir;

– Birinci və İkinci Rusiya-Qacar müharibələri arasında Qazax-Şəmşəddil bölgəsində Rusiyanın müstəmləkəçilik siyasətinə qarşı baş vermiş azadlıq mücadiləsinin xarakteri, mübarizə formaları və digər xüsusiyyətləri səciyyələndirilərək, Azərbaycanın azadlıq mübarizəsi tarixindəki rolu müəyyənləşdirilmişdir;

– Borçalı, Qazax və Şəmşəddil bölgələrində mövcud olan ictimai-siyasi və sosial-iqtisadi şərait nəzərdən keçirilmiş və bu şəraitdən asılı olaraq yaranan aqrar münasibətlərin həmin bölgələr üzrə fərqli və ümumi cəhətləri təhlil olunmuşdur;

– Borçalı, Qazax və Şəmşəddil bölgələrinin dövrlər üzrə inzibati-ərazi məsələsi nəzərdən keçirilmiş, oxşar və fərqli cəhətləri ətraflı və müqayisəli surətdə təhlil edilmişdir;

– Rusiya-Qacar müharibələri dövründə Borçalı, Qazax və Şəmşəddil bölgələrinin idarə olunmasında müxtəlif təbəqələrə mənsub olanların yerli əhali ilə münasibətləri məsələsinə toxunulmuş və bu münasibətlərin ilk növbədə məhz Rusiyanın müstəmləkəçilik siyasətinə xidmət etməsi açılıb göstərilmişdir;

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin əsas müddəa və nəticələrindən:

– XVIII-XIX əsrin əvvəllərində Şimali Azərbaycanın ictimai-siyasi və sosial-iqtisadi tarixinin araşdırılmasında;

– Şimali Azərbaycanın xanlıqlar dövrü, Rusiya işğalı dövrü, xalq hərəkatı və aqrar münasibətlər tarixinin kompleks tədqiqində;

– XVIII əsr – XIX əsrin əvvəllərində Şimali Azərbaycan xanlıqlarının Gürcüstanla münasibətləri, Rusiya-Qacar müharibələri dövründə azərbaycanlıların hərbçilik tarixinə dair ümumiləşdirilmiş əsərlərin yazılmasında;

– Şimali Azərbaycanın sosial-iqtisadi və ictimai-siyasi inkişafına dair dərs vəsaitlərinin hazırlanmasında;

– Ali məktəblərin müvafiq fakültələrində ixtisas kurslarının aparılmasında istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas müddəaları və elmi nəticələri müəllifin Azərbaycan Respublikasında və xarici ölkələrdə çıxan mötəbər elmi jurnallarda çap edilmiş məqalələrində, habelə müxtəlif elmi konfranslardakı məruzələrində öz əksini tapmışdır. Araşdırmanın nəticələri və materiallarından Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialında Azərbaycan tarixi və ümumi tarix üzrə mühazirə mətnləri, tədris proqramlarının hazırlanmasında istifadə olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya AMEA Tarix İnstitutunun "Azərbaycanın yeni tarixi və Azərbaycan xalqına qarşı soyqırımları tarixi (indiki Şimali Azərbaycanın XIX-XX əsrin əvvəlləri tarixi)" şöbəsində yerinə yetirilmiş, şöbənin 30 iyun 2021-ci il tarixli (protokol №10) iclasında müzakirə olunaraq müdafiəyə təqdim edilmişdir.

**Dissertasiya işinin quruluşu və həcmi.** Dissertasiyanın ümumi həcmi (ədəbiyyat siyahısı istisna olmaqla) 288000 işarədir. Giriş (17 səhifə – 37156 işarə), I fəsil (2 yarımfəsil – 20 səhifə – 43442 işarə), II fəsil (2 yarımfəsil – 29 səhifə – 66633 işarə), III fəsil (5 yarımfəsil – 58 səhifə – 126814 işarə), nəticə (7 səhifə – 14421 işarə), istifadə olunmuş ədəbiyyat siyahısından (13 səhifə – 22003 işarə) ibarət olmaqla ümumilikdə 143 səhifədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanən **"Giriє"** hissəsində mötəbər dəlillərə əsaslanmaqla seçilmiş mövzunun aktuallığı inandırıcı və sanballı surətdə əsaslandırılmış, bu problemin işlənmə dərəcəsinin tutumlu icmalı verilmiş, tədqiqatın obyekti, predmeti qeyd olunmuş, məqsəd və vəzifələri tutarlı şəkildə müəyyənləşdirilmiş, tədqiqat metodları göstərilmiş, müdafiəyə çıxarılan əsas müddəalar, araşdırmanın elmi yeniliyi, nəzəri və əməli əhəmiyyəti ətraflı şəkildə işıqlandırılmış, dissertasiya işinin aprobasiyası, onun yerinə yetirildiyi təşkilat, əsərin ümumi və hər bir bölmənin həcmi haqqında məlumat nəzərə çatdırılmışdır.

Dissertasiyanın ilk fəsli – **"Azərbaycanın Borçalı və Qazax-Şəmşəddil bölgəsinin siyasi və sosial-iqtisadi həyatının tarixindən"** adlı fəsil iki paraqrafdan ibarətdir. Bu fəslin **"Borçalı, Qazax və Şəmşəddil sultanlıqlarının siyasi həyatına dair"** adlı ilk paraqrafında dissertant mötəbər qaynaqlara, o cümlədən hələ XIX-XX yüzilliklərdə işıq üzü görmüş qaynaq xarakterli nəşrlər və geniş ədəbiyyat materiallarına əsaslanmaqla adları sadalanan qərb bölgələrimizin XVIII əsrin sonu – XIX əsrin əvvəllərinə qədər olan siyasi tarixinə ümumi bir ekskurs etmiş, bu bölgələrdə getmiş ən mühüm siyasi-ictimai proseslərin səbəbləri, gedişi və nəticələrinə ümumi bir nəzər salmışdı.

Bu paraqrafda müxtəlif qaynaqlara söykənilməklə hər üç bölgənin XVI-XVIII əsrlər siyasi tarixinə nəzər yetirilmiş, XVI-XVII əsrlərdə, XVIII əsrin əvvəllərində Şərqi Gürcüstan və bizim bu üç tarixi bölgəmizi Səfəvilər və Əfşarların idarə etdikləri Azərbaycan dövlətlərinin tərkibində olduqları qabardılmış, XVIII əsrdə Borçalı, Qazax və Şəmşəddil bölgələrinin siyasi vəziyyətində və idarəçilik formasında tez-tez dəyişikliklərin baş verdiyi xüsusi vurğulanmışdır. Bu paraqrafın ən diqqətçəkən cəhətlərindən biri Borçalı və Şəmşəddil torpaqlarının, guya ki, Nadir şah Əfşar tərəfindən Gürcüstana bağışlanması barədə heç bir elmi əsası olmayan müddəaya münasibətin bildirilməsidir. Müəllif A.Bakıxanov, N.Dubrovin, İ.Petruşevski və b. məşhur müəlliflərin bu bölgələrin siyasi tarixi barəsindəki məlumatlarını mötəbər qaynaqlarla tutuşdurmaqla incələdikdən sonra

V.Umudlu, M.Abdullayev və b. kimi çağdaş tarixçilərin 1736-cı il Muğan qurultayından sonra Nadir şah Əfşarın bu bölgələrin siyasi taleyində mühüm rol oynamış məlum qərarının dəyərləndirilməsi kimi ciddi elmi-siyasi və mənəvi əhəmiyyəti olan mühüm məsələnin dəyərləndirilməsi işinə baş vurmuş və QAKA, "Gülüstani-İrəm", "Qarabağnamələr" və s. mötəbər qaynaqlara söykənməklə qeyd edir ki, 1736-cı il Muğan qurultayından sonra Nadir şah heç də doğma torpaqlarımızı heç bir yadelliyə əta etməmiş, sadəcə olaraq onun şah seçilməsindən rəncidə qalmağa cürət etmiş Gəncə-Qarabağ bəylərbəyləri Ziyadoğullarını cəzalandırmaq üçün bu üç bölgənin yalnız *idarəçiliyin* (kursiv bizimdir) bir məmurundan – Ziyadoğullarından alıb, tamamilə özündən asılı digər əyalətin hakiminə – Kartli-Kaxetiya çarlığına həvalə etmişdir. Bu paraqrafda xüsusi vurğulanır ki, bütün əvvəlki tarixi dövrlər, o cümlədən də XVIII əsr bu bölgələrin siyasi həyatında ağır bir mərhələ olmuş, idarəçiliyin tez-tez dəyişməsi isə bu sultanlıqların həyatında həm də ağır sosial-iqtisadi nəticələrə gətirib çıxarmışdır.

İlk fəslin sonuncu paraqrafında **("XVIII əsrin ikinci yarısı – XIX əsrin əvvəllərində Borçalı və Qazax-Şəmşəddil bölgələrinin sosial-iqtisadi vəziyyəti")** qeyd olunur ki, XVIII əsrin əvvəllərində Borçalı bölgəsində əmtəə-pul münasibətlərinin ilk cücərtiləri hiss olunmağa başlamış, yerli zəngin xammal bazası və təbii sərvətlər bazar münasibətlərinin inkişafına öz təsirini göstərmişdir.[7]

Çoxsaylı qaynaqlara əsaslanmış tədqiqatların bir çoxunda qeyd olunur ki, Qazax və Borçalı bölgələri əhalisinin çox böyük əksəriyyətini Azərbaycan türklərinin tərəkəmə qarapapaq tayfaları təşkil etmişdir.[8] Araşdırmalar göstərir ki, 1801-ci il Rusiya işğalından dərhal sonra işğalçılar bu bölgələrdə ağır müstəmləkə rejimi qurmuş, əhali

[7]Аббасова, М.А. История Борчалинского махала (XIX – начало XX вв.) / М.А.Аббасова. – Баку: Сабах, – 2006, с. 11.

[8]Bax: Abdullayev, M.Q. Qazax, Şəmşəddil və Borçalı sultanlıqları rus işğalınadək olan dövrdə (XVIII əsrin ortaları – XIX əsrin 40-cı illəri // – Tbilisi: Qarapapaqlar, 2014, may, №5, s. 24.

üzərinə ağır natural və pul vergiləri qoymuşdular.[9] Belə ağır müstəmləkə zülmü əhalinin müəyyən qismini doğma torpaqları tərk edib qürbət ellərə üz tutmağa vadar edirdi.[10] Tədqiqatlar göstərir ki, araşdırılan dövrdə bu bölgələrdə inkişaf etmiş kənd təsərrüfatı, sənətkarlıq, ticarət, habelə sənaye yönümlü müəssisələr (xüsusən də Borçalıda) mövcud olmuş, lakin ağır nəticəli hərbi-siyasi proseslər bu bölgələrin sosial-iqtisadi durumuna güclü mənfi təsir göstərmiş, əhalinin bir hissəsinin mühacirətə getməsinə səbəb olmuş, Rusiya işğalı ilə isə bu bölgələrdə çox ağır müstəmləkə rejimi qurulmuşdur.

Dissertasiyanın II fəsli də **(“XVIII əsrin ikinci yarısında Gəncə xanlığının Borçalı və Qazax-Şəmşəddil bölgələri uğrunda Rusiya-Gürcüstan blokuna qarşı mübarizəsi”)** iki paraqrafdan ibarətdir. Bunlardan birincisi **“Gəncə xanlığının Kartli-Kaxetiya çarlığı ilə münasibətləri tarixindən”** adlanır. Bu paraqrafda qeyd edilir ki, XVIII əsrin II yarısında siyasi münasibətlər, demək olar ki, həmişə öz gərginliyi ilə seçilmiş, tərəflər arasında vaxtaşırı münaqişələr baş vermişdir. Çoxdan bəri Azərbaycan torpaqları hesabına öz ərazilərini genişləndirmək niyyətində olan gürcü çarları bu məqsədlə Rusiyanın dəstəyindən istifadə etməyə çalışır, Rusiyanı şirnikləndirmək üçün müxtəlif tədbirlərə əl atırdılar. Nadir şah Əfşarın ölümündən sonra gürcü hökmdarlarının bu istiqamətdə fəaliyyəti xeyli canlansa da Osmanlı tərəfinin qıcıqlanmasından ehtiyat edən Peterburq sarayı gürcülərin belə təkliflərindən hələlik faydalanmamağı qərara aldı.[11]

Dissertasiyanın bu hissəsində müxtəlif qaynaqlara və ədəbiyyat materiallarına əsaslanaraq Şəmşəddilin idarəçiliyinin Gəncə hökmdarı II Şahverdi xanın dövründə II İraklinin əlinə keçməsi məsələsinə də

---

[9]Bax: Акты, собранные Кавказской археографической комиссией: [в 12 томах]. – Тифлис: Типография Главного управления Наместника Кавказского, – Т. 6, Ч. 1. – 1874, с. 3 və b.

[10]Акты, собранные Кавказской археографической комиссией: [в 12 томах]. – Тифлис: Типография Главного управления Наместника Кавказского, – Т. 4. – 1870, с. 482.

[11]Цинцадзе, И. Посольство в Россию Афанасия Тбилели и Симона Макашвили // – Тбилиси: Исторический вестник, – № 26, 1952, – с. 158-159.

toxunulmuşdur.[12] Bu paraqrafda Gəncə xanlığının Şəki, Şirvan, Borçalı qüvvələri ilə birlikdə XVIII əsrin 50-ci illərinin əvvəllərində Kartli-Kaxetiyanın Gəncəni işğal etmək cəhdlərinə qarşı apardığı mübarizəyə ətraflı şəkildə toxunulmuşdur.[13] Bu dövrün görkəmli tədqiqatçılarından mərhum Ş.P.Həmidovanın məlumatlarına əsaslanaraq belə bir müddəa irəli sürülür ki, Şəki hökmdarının tələbi əsasında Qazax, Borçalı, Şəmşəddil sultanlıqları, eləcə də İrəvan və Gəncə xanlıqları Hacı Çələbi xanın qoşunu ilə birləşərək Kartli-Kaxetiya çarlığı əleyhinə çıxmış, nəticədə həmin xanlar və sultanlar II İrklidən uzaqlaşaraq Hacı Çələbinin ətrafında birləşmişdilər.[14] Bu paraqrafda həmçinin XVIII əsrin ortalarında çox mürəkkəb olmuş Gəncə-Qarabağ münasibətlərinə toxunulmuş, müxtəlif qaynaqlar əsasında "Qızılqaya xəyanəti" adı ilə tariximizə düşmüş hadisələrin səbəbləri, gedişi və nəticələri işıqlandırılmış, növbəti Gəncə hökmdarı Məhəmmədhəsən xanın II İraklidən asılılıqdan yaxa qurtarmaq cəhdləri dəyərləndirilmiş, 1768-1774-cü illər Rusiya-Osmanlı müharibəsi dövründə Peterburq hökumətinin Cənubi Qafqazdakı xristian amilindən öz işğalçı planlarını reallaşdırmaq üçün istifadə etmək siyasəti açılıb göstərilmişdir.

Paraqrafda həmçinin Gəncə-Qarabağ münasibətləri, Ağaməhəmməd xan Qacarın 1795-ci il Tiflis səfəri və Cavad xanın bu hadisələrdə iştirakı, Qacar amilindən gürcü təsirinə son qoymaq üçün istifadə edilmək baxımından Cavad xanın yürütdüyü siyasətdən, 1795-1797-ci illərdə Gəncə xanlığının gürcülər, avarlar və Qarabağ xanlığının yürüşlərinə məruz qaldığı, Cavad xanın ancaq xeyli təzminat və girovlar vermək hesabına öz hakimiyyətinin qorunub saxlanılmasına

[12]Бабаев, Э.Т. Из истории Гянджинского ханства / Э.Т.Бабаев. – Баку: Nurlan, – 2003, с. 22.

[13]Molla Məhəmməd Əl-Cari. Car salnaməsi / M.M.Əl-Cari. – Bakı: "Səda" nəşriyyatı, – 1997, s. 52-53.

[14]Həmidova, Ş.P. XVIII əsrin ikinci yarısında Azərbaycan-Gürcüstan münasibətləri tarixindən / Ş.P.Həmidova. – Bakı: Elm, – 1985, s. 44; Babayev E.T. Göstərilən əsəri, s. 23-24.

nail olması və s. haqqında məlumat verilir.[15]

Bütövlükdə bəhs olunan dövrdə Borçalı, Qazax və Şəmşəddil bölgələri uğrunda müxtəlif tərəflər arasındakı qarşılıqlı iddialar Gəncə xanlığı və rəqibləri arasında gərgin münasibətlərə gətirib çıxarmış, bəzi hallarda hətta qonşu Azərbaycan xanlıqları da Gəncə əleyhinə gürcülərlə ittifaqa girmiş, Gəncə torpaqlarının Peterburq, Tiflis və b. siyasi mərkəzlərin iddia-işğal dairəsinə düşməsi bütün varlığı dövründə Gəncə xanlığının çox mürəkkəb bir hərbi-siyasi durumda saxlamış, bir çox hallarda onun tamamilə təklənməsinə, çox ağır sınaqlar qarşısında qalmasına gətirib çıxarmışdır.

İkinci fəslin sonuncu paraqrafı **"1783-cü il Georgiyevsk müqaviləsi, Rusiya və Kartli-Kaxetiya birliyinin Borçalı və Qazax-Şəmşəddil torpaqlarına iddialarının güclənməsi"** adlanır. Burada qeyd edilir ki, XVIII əsrin 80-ci illərində Cənubi Qafqazdakı mürəkkəb hərbi-siyasi vəziyyət, xüsusən də osmanlı təzyiqləri bəzi Gürcüstan dövlətlərini Rusiya himayəsinə sığınmağa təhrik edirdi. II İrakli isə həm də Rusiya himayəsindən Azərbaycan torpaqlarının işğalından yararlanmağa çalışırdı. Digər tərəfdən Gürcüstan ərazisindəki müxtəlif gürcü çarlıqları öz daxili çəkişmələrində xarici havadarların, o cümlədən Rusiyanın havadarlığından istifadə etmək niyyətində idi. Bütün bunlar eyni zamanda 1774-cü il Kiçik Qaynarca müqaviləsi ilə Osmanlıları bütün istiqamətlərdə xeyli sıxışdırmış, 1783-cü il aprelin 8-də Krım xanlığını ləğv edib bütün yarımadanı ilhaq etmiş Rusiyanın Cənubi Qafqaza olan işğalçılıq niyyətlərini reallaşdırılması işinə əlverişli zəmin yaradırdı. Hər iki tərəfin belə mövqeyi nəticə etibarı ilə 1783-cü il iyulun 24-də Şimali Qafqazdakı Rusiya istehkamı olan Georgiyevskdə Rusiya və Kartli-Kaxetiya çarlığı arasında sonuncunun Rusiya himayəsinə qəbul edilməsi barədə

---

[15]Qarabağnamələr: [3 kitabda]. – Bakı: Yazıçı, – II kitab, – 1991, s. 457; Дубровин, Н.Ф. История войны и владычества русских на Кавказе: [в 6-и томах] / Н.Ф.Дубровин. – Санкт-Петербург: Типография П.Н.Скороходова, – Том III. – 1886, с. 149.

xüsusi traktatın imzalanması ilə nəticələndi.[16] Rusiya tərəfindən Qafqazdakı Rusiya qoşunlarının baş komandanı P.S.Potyomkin, qarşı tərəfdən isə İ.K.Baqration-Muxranski və Q.R.Çavşavadzenin imzaladıqları[17] 17 maddəlik "dostluq müqaviləsi"nin ortaya çıxması, bu sənəddə Rusiyanın öz yeni protektoratlığının bir çox Azərbaycan torpaqlarına iddialarını diplo-matik baxımdan dəstəkləməsi, II İraklini həm də "Qazax, Borçalı, Qax, Şamaxı, Şirvan, Gəncə və İrəvan hökmdarı" kimi tanıması, rəmzi şəkildə olsa da Tiflisə məhdud rus hərbi qüvvələrinin yerləşdirilməsi xüsusən də Borçalı-Qazax-Şəmşəddil-Gəncə bölgələrimizə qarşı əsassız gürcü iddialarına çox təhlükəli Rusiya dəstəyinin əlavə olun-ması demək idi.

Qubalı Fətəli xanın vəfatından sonra II İrakli cəsarətlənib Borçalı-Qazax-Şəmşəddilə öz iddialarını yenidən ortaya atsa da, Ağaməhəm-məd xan Qacarın məşhur 1795-ci il müzəffər yürüşləri bu gürcü çarının bütün niyyətlərini qısa müddətə olsa da darmadağın etmiş, 1795-1797-ci illərdə Qacar və Zubovun Cənubi Qafqaz ekspedisiyaları bizi maraqlandıran bölgələrin tez-tez bir əldən digərinə verilməsinə səbəb olmuşdur. II İraklini əvəz etmiş oğlu IX Georginin bütün cəhdlərinə baxmayaraq, Cavad xan Borçalı və Şəmşəddil üzərində Gəncə xanlığının bərpa olunmuş hakimiyyətini ta 1803-cü ilədək əsasən qoruyub saxlaya bilmişdir. Bu paraqrafın sonunda bildirilir ki, tərəflər arasında daim mübahisə obyekti olmuş bu bölgələr barəsində Kartli-Kaxetiya çarlarının müxtəlif fərman və sərəncamlarının olması heç də həmin bölgələrin o məqamda Kartli-Kaxetiyanın ixtiyarında olduğunu mübahisəsiz sübut edə bilməz. Belə ki, böyük əksəriyyəti çox vaxt nümayişkəranə təbliğati xarakter daşımış bu sənədlərin bir çoxu elə kağız üzərində qalmış, Gəncə hökmdarları lap sonadək bu torpaqlar üzərində öz qanuni hüquqlarını müdafiə etməyə çalışmışdılar.

Dissertasiyanın sonuncu fəsli **"Cənubi Qafqazın Rusiya**

---

[16]Маркова, О.П. Россия, Закавказье и международные отношения в XVIII веке / О.П.Маркова. – Москва: Наука, – 1966, – с. 168.

[17]Məcnunov, R. Tiflis şəhərinin tarixi keçmişinə dair // – Bakı: Tarix və onun problemləri, – 2016. №3, – s. 75-83.

**tərəfindən işğalı dövründə Gəncə xanlığının Borçalı və Qazax-Şəmşəddil torpaqları uğrunda mübarizəsi”** adlanır. Onun ilk paraqrafında Borçalı və Qazax-Şəmşəddil bölgələrinin Rusiya tərəfindən işğalından bəhs edilir. Bu paraqrafda qeyd olunur ki, Cənubi Qafqazda geniş işğallara başlamaq işinə Rusiya çarlığı Şərqi Gürcüstanın romanovlar imperiyasına birləşdirilməsi ilə başladı. 1801-ci ilin yanvarında verilmiş manifestə əsasən, Şərqi Gürcüstan bölgələri ilə yanaşı Azərbaycanın Pəmbək, Şörəyel, Borçalı, Qazax və Şəmşəddilin də Rusiyaya qatıldığı elan edilirdi.[18] Belə bir manifest bir daha həmin ilin payızında verilsə də, 1801-1803-cü illərdə Rusiya-gürcü bloku bu bölgələrin işğal edilməsi, burada öz müstəmləkə rejimini qurmaq istiqamətində bir sıra ardıcıl addımlar atsa da, müxtəlif təmtəraqlı sənədlər bəyan etsə də, 1801-1803-cü illərdə bu bölgələrin rus-gürcüsayağı “birləşdirilməsi” faktiki olaraq ancaq xristian blokunun rəsmi sənədlərində, kağız üzərində idi; həmin bölgələr uğrunda Cavad xanın Gəncəsi qeyri-bərabər mübarizəni davam etdirir, həmin torpaqların yağıların əlinə keçməsi ilə barışmırdı.

Fəslin II paraqrafı Cavad xan Ziyadoğlunun 1801-1803-cü illərdə bu torpaqların işğalına qarşı, onların Gəncə xanlığının tərkibində saxlanılması uğrunda mübarizəsinin işıqlandırılmasına həsr olunmuşdur. Bu paraqrafda qeyd olunur ki, Qafqazdakı Rusiya komandanlığının öz sənədləri sübut edir ki, Rusiyanın təmtəraqlı və qorxunc manifestlərinə və digər sənədlərinə baxmayaraq, 1801-ci il yazın əvvəllərində Gəncə xanlığının qoşunları Şəmşəddildə tam sərbəst hərəkət etmiş, əhalidən vergilər toplamışdı.[19] Cavad xan Knorrinq, Sisianov və b. Rusiya hərbiçiləri və siyasətçiləri ilə intensiv yazışmalarında bu bölgələrin həmişə onun əcdadlarına və ona məxsus olduğunu cəsarətlə bildirir, işğalçı rus qoşunlarının həmin bölgələrdən

---

[18]Алиева, И.Х. Политическое и социально-экономическое положение азербайджанцев Тифлисской губернии (1846-1017) / И.Х.Алиева. – Баку: Тахсил, – 2009, с. 25-26.

[19]Акты, собранные Кавказской археографической комиссией: [в 12 томах]. – Тифлис: Типография Главного управления Наместника Кавказского, – Т. 1. – 1866, с. 606-607.

çıxarılmasını qətiyyətlə tələb edirdi.[20] Bölgələrin əhalisi də rus-gürcü işğalçılarına boyun əyməmək üçün gah bilavasitə Gəncə xanlığının ərazisinə pənah gətirir, gah da yaylağa getmək adı ilə dağlara çəkilirdi.[21] Cavad xan hətta işğalçılara qarşı mübarizədə az qala bütün Şəmşəddil əhalisini Gəncəyə köçürməkdən belə çəkinmirdi.[22]

Doğrudur, bir sıra hallarda rusların üstün hərbi qüvvələrinin qarşısı alınmaz yürüşləri zamanı bir sıra ağalar, kəndxudalar işğalçılara tabe olmaq, "sədaqət" andları içmək məcburiyyətində qalır, bəzi yerli hakimciklər (məs., Şəmşəddil sultanı Nəsib) hakimiyyətlərini qoruyub saxlamaq ümidi ilə rus işğalçılarına sığınmağı daha əlverişli, məqbul sayırdılar.[23] Bütün 1802-ci il ərzində tərəflər arasında bu bölgələrə hökmran olmaq uğrunda mübarizə getmiş, bu mübarizəyə həm də gürcü şahzadəsi Aleksandr da (Ləvənd Mirzə də) qoşulmuşdu.[24] Qazaxlı Pənah ağa da zaman-zaman bu mübarizədə Gəncə xanlığına dəstək verməyə cəhd göstərirdi.[25] 1802-ci ilin ortalarında Qafqazdakı rus qoşunlarının baş komandanı Knorrinqin, habelə Tiflisdəki əsas Rusiya yetkilisi Kovalevskinin tutduqları vəzifədən geri çağırılmaqları da bir daha sübut edir ki, Rusiya rəhbərliyi həm də onların Azərbaycan torpaqlarına yiyələnmək uğrundakı fəaliyyətindən, Gəncə

---

[20]Акты, собранные Кавказской археографической комиссией: [в 12 томах]. – Тифлис: Типография Главного управления Наместника Кавказского, – Т. 1. – 1866, – с. 608.

[21]Акты, собранные Кавказской археографической комиссией: [в 12 томах]. – Тифлис: Типография Главного управления Наместника Кавказского, – Т. 1. – 1866, – с. 592, 595 və b.

[22]Babazadə, E.T. Gəncə xanlığının tarixindən (rus dilindən tərcümə, 2-ci nəşr) / E.T.Babazadə. – Bakı: "Şərq-Qərb" Nəşriyyat Evi, – 2012, – s. 79.

[23]Документы по истории Грузии (1862-1972). Грузия в период буржуазных реформ (1862-1866): [в 2-х томах] / под редакцией Ш.К.Чхетия. – Тбилиси: б.и., – том I. Часть 2, – 1954, – с. 397.

[24]Həmidova, Ş.P. XVIII əsrin ikinci yarısında Azərbaycan-Gürcüstan münasibətləri tarixindən / Ş.P.Həmidova. – Bakı: Elm, – 1985, s. 75.

[25]Bax: Kərimli, İ.K. XIX əsrin əvvəllərində Cavad xanın Şəmşəddil sultanlığı uğrunda mübarizəsi tarixindən // "Qafqaz tarixinin aktual məsələləri" mövzusunda beynəlxalq konfransın materialları. Gəncə Dövlət Universiteti, – 15-16 oktyabr. – Gəncə: – 2015. II hissə, – s. 17.

xanlığının müqavimətinin birdəfəlik qırılmamasından narazı idi. Knorrinqin yerinə təyin edilən amansız, qəddar, hiyləgər P.D.Sisianov 1803-cü ilin fevralında vəzifəsinin icrasına əməli şəkildə başlayan kimi sərt tədbirlərə əl atdı – Car-Balakənin işğalı, xanlar arasındakı narazılıqları hiyləgərcəsinə qızışdırması, onları bir-birlərindən aralı salması, rəqibləri və tərəfdaşlarını ciddi surətdə hədələməsi, hərbi zor tətbiq etməsi ilə seçilən bu gürcü əsilli şöhrətpərəst general 1803-cü ilin sonlarında Borçalı, Qazax və Şəmşəddili tam nəzarət altına alıb, 1804-cü il yanvarın 3-də Gəncəni işğal edib qan içində boğa bildi.[26]

Dissertasiyanın sonuncu fəslinin üçüncü paraqrafı tədqiq olunan bölgələrin I Rusiya-Qacar müharibəsi (1804-1813) və məşhur Qazax-Şəmşəddil üsyanları dövrü tarixinin nəzərdən keçirilməsinə həsr olunmuşdur. Paraqrafda qeyd olunur ki, Gəncənin işğalından sonra Rusiya Borçalı-Qazax-Şəmşəddil bölgələrində öz müstəmləkəçi hakimiyyətini qurur, yerli imtiyazlı təbəqələrin hüquqlarını məhdudlaşdırmağa çalışır, yerli silahlı qüvvələrdən osmanlılar və qacarlara qarşı hərbi əməliyyatlarda iştirak etməyə ciddi cəhdlər göstərirdi. Bütün bunlarla barışmaq istəməyən yerli əhalinin müəyyən hissəsi müxtəlif müqavimət üsullarına əl atır, bir çoxları isə çıxış yolunu doğma yurdu tərk edib mühacirətə getməkdə görürdülər.

Doğrudur, bəzi nüfuzlu yerli ağalar ara-sıra Rusiyaya tabe olmaq haqqında sənədlər imzalamışdılar. Lakin fürsət düşən kimi onların antirusiya cəbhəsinə keçmələri, 1808, 1818 və b. illərdə hətta Rusiyaya qarşı iğtişaş və üsyanlara başçılıq etmələri, Rusiya tərəfindən həbs, sürgün və s. bu kimi cəzalara məhkum olunmaları sübut edir ki, onların ruslara "sədaqət" andları rus əsgərlərinin silahlarının lülələri altında içilmiş və imzalanmışdı. Bunu 1805-ci il Şəmşəddil üsyanı, 1806-cı ildə burada baş vermiş Əmirqulu bəyin antirus üsyanı, hətta Nəsib bəyin bir ara Rusiyaya xidmətdən imtina edib Qacarların tərəfinə keçməsi, 1807-ci ilin hərbi əməliyyatları zamanı borçalıların Qacar qoşunlarının tərkibində vuruşmaları, bu bölgələrin əhalisinin xeyli

[26]Babazadə, E.T. Gəncə xanlığının tarixindən (rus dilindən tərcümə, 2-ci nəşr) / E.T.Babazadə. – Bakı: "Şərq-Qərb" Nəşriyyat Evi, – 2012, – s. 122.

hissəsinin tez-tez doğma yurdu tərk edib dağlara, Osmanlı və Qacar dövlətlərinə köçmələri və s. bu kimi proseslər də açıq-aşkar sübut edir.

1810-cu ildə bu bölgələrin yerli ayrım əhalisinin xeyli hissəsi ruslara qarşı üsyan qaldırıb İrəvan xanlığına üz tutmuş,[27] 1812-ci il Kaxetiya üsyanı zamanı Qazax ağaları, borçalılar Rusiya komandanlığının müsəlman atlılarından ibarət hərbi dəstələri yaratmaq, Kaxetiya üsyançıları, Dağıstan mübarizləri ilə hərbi əməliyyatlarda iştirak etmək əmrini yerinə yetirməkdən boyun qaçırmışdılar.[28] Markiz Pauliççi etiraf edirdi ki, 1812-ci il Kaxetiya üsyanı Borçalı, Qazax və Şəmşəddildə güclü həyəcanlara gətirib çıxarmışdı.[29]

Rusiya müstəmləkəçiləri bu bölgələrdə yerli əhalini heç olmasa bir qədər "sakitləşdirmək" üçün müxtəlif tədbirlərə əl atmalı olurdular. Elə Qafqazdakı Rusiya qoşunlarının baş komandanı A.P.Yermolovun 1818-ci il martın 31-də imzaladığı, yerli imtiyazlı təbəqələrə bir növ yarınmaq təsiri bağışlayan "Borçalı və ona qonşu olan bölgələrin ağalarının hüquqları və vəzifələri" adlı Əsasnamə[30] də belə addımlardan sayıla bilər. Bu Əsasnamə həmçinin ağaları mülkiyyətçi yox, idarəçi, icarədar kimi tanımaqla kəndli zümrəsinə yönəlmiş reverans təəssüratı da bağışlayırdı. Lakin çox vaxt olduğu kimi, bu dəfə də çarizm əks nəticə ilə üzləşdi: Əsasnamə bu bölgələrin güclü narazılığına səbəb olmuş, bu yerləri güclü həyəcanlar bürümüşdü. Həmin həyəcanlara Qazaxda Mustafa ağa, Şəmşəddildə isə Nəsib sultan başçılıq edirdilər.[31]

---

[27]Акты, собранные Кавказской археографической комиссией: [в 12 томах]. – Тифлис: Типография Главного управления Наместника Кавказского, – Т. 4. – 1870. – 1019 с. т. IV, с. 485.

[28]Маркова, О.П. Восстание в Кахетии 1812 г. / О.П.Маркова. – Москва: Издательство Академии Наук СССР, – 1951, с. 120.

[29]Акты, собранные Кавказской археографической комиссией: [в 12 томах]. – Тифлис: Типография Главного управления Наместника Кавказского, – Т. 5. – 1873. – с. 60.

[30]Məmmədov, Borçalı Çar Rusiyasının işğalı dövründə // – Tbilisi: Qarapapaqlar, – 2009, fevral, №02, – s. 9.

[31]Umudlu, V.U. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə / V.U.Umudlu. – Bakı: Elm, – 2004, – s. 113.

Üçüncü fəslin dördüncü paraqrafında Borçalı və Qazax-Şəmşəddil bölgələrinin 1826-1828-ci illər Rusiya-Qacar müharibəsi və ondan dərhal sonrakı durumu nəzərdən keçirilir. Burada qeyd olunur ki, adı çəkilən müharibə dövründə bu bölgələr döyüşlər meydanına çevrilmiş, əhali müstəmləkəçilər tərəfindən kütləvi soyğunçuluqlara məruz qalmış, zaman-zaman doğma yurddan didərgin düşmüşdür. Elə təkcə müharibənin ilk bir neçə ayı ərzində Rusiya müstəmləkəçiləri bu üç bölgənin əhalisindən 5500 baş öküz müsadirə etmişdilər.[32]

1826-cı ilin yayında məşhur Gəncə, o cümlədən Cənubi Qafqazdakı ümummüsəlman üsyanları, Pəmbək və Şörəyelin İrəvan xanlığı tərəfindən rus işğalından azad edilməsi və s.b.k. proseslər Borçalı, Qazax və Şəmşəddildə də güclü əks-səda doğurmuşdu. Şəmşəddildə əhali üsyan qaldırıb rus hərbi dəstəsini məhv etmiş, yerli pristavı əsir götürmüşdü. Gəncədə hakimiyyətə gəlmiş Uğurlu xan Şəmşəddilə də qoşun yeritmişdi.[33] Üsyan tezliklə Qazaxı da bürümüş, bu bölgələr rus ağalığından xilas olunmuşdu.[34]

Beləliklə, 1826-1828-ci illər rus-Qacar müharibəsi dövrü və ondan sonrakı mərhələdə müstəmləkəçilərə qarşı çoxtərəfli mübarizənin davam etməsinə baxmayaraq siyasi pərakəndəlik, qüvvələrin qeyri-bərabərliyi üzündən Borçalı, Qazax və Şəmşəddil torpaqlarımız uzun müddətə Rusiya işğalçılarının əlinə keçmiş, burada yadellilərin müstəmləkə rejimi bərqərar edilmişdir.

Dissertasiyanın III fəslinin sonuncu paraqrafında XIX əsrin ilk sülsündə Rusiya imperiyası xəzinəsinin Qazax və Şəmşəddil bölgələrində yürütdüyü vergi siyasətinə dair məsələlər araşdırılır. Bildirilir ki, XIX əsrin ilk otuzilliyində çarizmin Quzey Azərbaycanda güddüyü əsas mənafelərdən biri də fiskal xarakterli mənafe, yəni hər vasitə ilə çar xəzinəsinə yeni gəlir qaynaqları əldə etmək idi. Bu istiqamətdə

---

[32]Ибрагимбейли, Х.М. Россия и Азербайджан в первой трети XIX в. / Х.М.Ибрагимбейли. – Москва: Наука, – 1969, – с. 164.
[33]Umudlu, V.U. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə / V.U.Umudlu. – Bakı: Elm, – 2004, s. 150-152.
[34]Минасазов, Г.Б. Сто лет одной революции (Азербайджанское восстание 1826 года) / Г.Б.Минасазов. – Баку: АзГНИИ, – 1930, – с. 9.

işğalçı strukturlar hər cür imkan və vasitələrdən istifadə etməyə hazır idilər. Gəncə xanlığını (hətta işğaldan sonra belə) "cəzalandırmağa" çalışan işğalçılar artıq 1804-cü ilin fevral-mart aylarında xanlığın 16 kəndini (14-ü müsəlman, 2-si xristian kəndi olmaqla) buradan "qoparaq", Şəmsəddil sultanlığına "qatmışdılar".

İşin **"Nəticə"** hissəsində tədqiqat gedişində əldə olunmuş elmi-nəzəri qənaətlər ümumiləşdirilərək aşağıdakı nəticələrə gəlinmişdir:

1. Borçalı, Qazax və Şəmşəddil bölgələri Azərbaycanın qədim torpaqları olaraq, tarixi boyu strateji əhəmiyyətə malik olmuş və bu səbəbdən müxtəlif dövlətlər arasında hərbi-siyasi münaqişələrin mərkəzində dayanmışdır.
2. XVIII əsrdə Nadir şahın qərarları ilə Borçalı və Qazax bölgələri bir müddət Kartli-Kaxetiya çarlarının idarəsinə verilsə də, bu, Azərbaycanın ərazi bütövlüyünə xəyanət kimi qəbul edilə bilməz.
3. XIX əsrin əvvəllərində Borçalı, Qazax və Şəmşəddil bölgələrinin Rusiyaya ilhaq edilməsi, bu ərazilərin Gürcüstan quberniyasının tərkibinə distansiya kimi daxil edilməsi Azərbaycanın müstəqilliyinə ciddi zərbə vurmuşdur. Bu işğal yerli əhalinin iqtisadi, sosial və mədəni həyatına mənfi təsir göstərmişdir.
4. Gəncə xanları, xüsusilə Cavad xan, Borçalı, Qazax və Şəmşəddil bölgələrinin geri qaytarılması uğrunda inadla mübarizə aparmışdır. Lakin daxili ziddiyyətlər, hərbi qüvvələrin qeyri-bərabərliyi və Rusiya imperiyasının hiyləgər siyasəti nəticəsində bu mübarizə uğursuzluqla nəticələnmişdir.

**Dissertasiyanın məzmununu əhatə edən aşağıdakı elmi məqalələr nəşr olunmuşdur:**

1. XVIII əsrdə Borçalı, Qazax və Şəmşəddil bölgələrinin siyasi həyatı haqqında // – Bakı: Sivilizasiya, – 2017. №6, – s. 106-112.
2. XVIII əsrin II yarısında Gəncə xanlığının Kartli-Kaxeti çarlığı ilə münasibətləri haqqında // – Bakı: Tarix və onun problemləri, – 2017. №3, – s. 33-39.

3. 1818-1820-ci illər Qazax-Şəmşəddil üsyanları və Şimali Azərbaycanın milli-azadlıq tarixində onların yeri // – Bakı: Tarix, İnsan və Cəmiyyət, – 2018. №4 (23), – s. 137-146.
4. Cavad xanın Borçalı, Qazax-Şəmşəddil torpaqlarının qaytarılması uğrunda Çar Rusiyasına qarşı mübarizəsi // – Bakı: Tarix, İnsan və Cəmiyyət, –2022. № 3, – s. 109-118.
5. Обзор источников и литературы по истории Борчалы, Казаха и Шамшаддиля в середине XVIII – первой четверти XIX вв // – Moskva: Современная Научная Мысль, – 2024. № 3, – s. 247-252.
6. Об освободительной борьбе Борчалинского и Газах-Шамшаддильского регионов против российского колониализма во время II Русско-Каджарской войны (1826-1828) // – Днипро: Освіта і наука у мінливому світі: проблеми та перспективи розвитку матеріали іі міжнародної наукової конференції, – 2020. Частина II, – s. 158-163.
7. 1783-cü il Georgiyevsk müqaviləsindən sonra Kartli – Kaxetiya hakimlərinin və onların havadarı olan Rusiyanın Borçalı və Qazax – Şəmşəddil torpaqlarına iddialarının artması // – The XVII International Scientific SYMPOSIUM “Karabakh: Way To Victory”, – Göteborq: – 2021, – s. 243-248.
8. XVIII əsrin II yarısı-XIX əsrin əvvəllərində Borçalı bölgəsinin təsərrüfat həyatı, vergilər və idarəetmə // ADPU-nun Quba filialı, Regionlarda Ali təhsil: “Reallıqlar və perspektivlər” II Beynəlxalq elmi konfransının materialları, – Quba: – 2022, – s. 246-251.
9. Borçalı və Qazax bölgələrinin Nadir Şah Əfşar tərəfindən Gürcüstan hakimlərinin idarəçiliyinə verilməsinə dair fikirlər // – ADPU-nun Quba filialı, Internatıonal Eurasıan Avshar Conference, – Quba: – 2023, – s. 346-352.
10. Borçalı və Qazax-Şəmsəddil bölgələri I Rusiya-Qacar müharibəsi (1804-1813) dövründə // – ADPU-nun Şamaxı filialı, Abbas Səhhət-150, Vətəni sevməyən insan olmaz mövzusunda Respublika elmi konfransının materialları, – Şamaxı: – 2024, – s. 260-264.

Dissertasiyanın müdafiəsi 14 fevral 2025-ci il tarixdə saat $14^{00}$-də AMEA Naxçıvan Bölməsi nəzdində fəaliyyət göstərən ED 1.13 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, I mərtəbə, akt zalı

Dissertasiya ilə AMEA Naxçıvan Bölməsinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Naxçıvan Bölməsinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 25 dekabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 24.12.2024
Kağızın formatı: 60/84, 16/1
Həcm: 47.989
Tirj: 100